# Piter Teys: Parlament seçkiləri Azərbaycanda demokratik təsisatların daha da möhkəmləndirilməsinə töhfə verəcək



**Fevralın 9-da keçiriləcək parlament seçkiləri Azərbaycanda demokratik təsisatların daha da möhkəmləndirilməsinə töhfə verəcək. Bunu seki-2020.az saytına açıqlamasında amerikalı jurnalist, politoloq Piter Teys bildirib.**

Azərbaycanda seçki sisteminin çox yaxşı təşkil olunduğunu qeyd edən Piter Teys deyib: “Ölkədə mövcud tolerant mühit, bütün xalqların və dinlərin nümayəndələri üçün yaradılan bərabər şərait hər zaman nümunə kimi qiymətləndirilib. Dövlətin bu cür tolerant cəmiyyət üçün formalaşdırdığı demokratik seçki mühiti, institusional hesabatlılıq və təkmil qanunvericilik bazası seçkilərin şəffaf, ədalətli şəraitdə keçməsinə zəmin yaradır.

Təcrübə göstərir ki, hər keçirilən yeni seçki demokratik standartların möhkəmləndirilməsinə xidmət edir. Bundan əvvəlki seçkilər seçici fəallığı ilə yadda qalıb. Ümid edirəm ki, fevralın 9-da keçiriləcək seçkilərdə də xalq şəffaf, demokratik mühitin yaratdığı imkanlardan səmərəli istifadə edəcək, bu, Azərbaycanın bölgədə və dünyada nüfuzunu daha da möhkəmləndirəcək”.

***Anar ƏLİYEV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.-2020.-17.-S.4.